Yeni keyfiyyət mərhələsi

Başa çatan tədris ili ali təhsilimizin inkişafında yeni bir mərhələ olmaqla, ilk növbədə, dördüncü sənaye inqilabının başlanması, rəqəmsal texnologiyaların sürətli inkişafı və qlobal pandemiya ilə şərtlənən müasir reallıqlar və yeni çağırışlarla xarakterizə oluna bilər. Təbii ki, əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla reallaşdırılan və yeni dövrün tələblərinə uyğun inkişaf etdirilən dövlət siyasətinin məzmununda ali təhsilin prioritet yer tutması xüsusi vurğulanmalıdır.



Prezident İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubiley mərasimində proqram xarakterli tarixi çıxışı və ali təhsil müəssisələri qarşısında konkret vəzifələr qoyması cari tədris ilində ali təhsilimizin ən mühüm hadisəsi kimi qiymətləndirilməlidir. Həmin çıxışda yüksəkixtisaslı kadr hazırlığının Azərbaycanın potensial sosial-iqtisadi inkişaf perspektivləri, milli-mənəvi dəyərlər və vətənpərvərlik tərbiyəsi kimi mühüm amillər nəzərə alınmaqla müasirləşdirilməsinin və təkmilləşdirilməsinin vacibliyi bəyan edilmişdir.

2019-2020-ci tədris ilində Mingəçevir Dövlət Universitetində (MDU) həyata keçirilən kompleks tədbirlər, ilk növbədə, əsas strateji hədəfə - paytaxt səviyyəli ali təhsil müəssisəsinə çevrilmək məqsədinə çatmaq yolunda irəliləyişə nail olmağa hesablanmışdır. Bu zaman milli ali təhsilimizdə müşahidə olunan inkişaf trendləri, beynəlxalq ali təhsil məkanında baş verən dəyişikliklərə əsaslanan yeni çağırışlar, eləcə də universitetin mövcud durumu və potensial imkanları əhəmiyyətli dərəcədə nəzərə alınmışdır.

Müasir tədris texnologiyalarının, innovativ təlim metodlarının və çevik universitet idarəetmə mexanizmlərinin tətbiqi MDU-nun milli ali təhsillmizdəki mövqeyinin gücləndirilməsini, onun Mingəçevir şəhəri və ətraf rayonların sosial-iqtisadi inkişafına daha çox töhfələr verməsini hədəfləyir. Bütün bunlara nail olmaq üçün tədrisin keyfiyyətinin yüksəldilməsi, elmi fəaliyyətin səmərəliliyinin artırılması, maddi-texniki bazanın gücləndirilməsi, əməkdaşların sosial rifahının yaxşılaşdırılması, yerli və xarici universitetlərlə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi, özəl və dövlət qurumları ilə səmərəli işbirliyinin yaradılması prioritet istiqamətlər olaraq seçilmişdir.

Prioritet istiqamətlər üzrə əsaslandırılmış qərarlar və inamlı addımlar MDU-nun yerləşdiyi regionda ümumi ekosistemin mühüm aktorlarından birinə çevrilməsi istiqamətində mühüm inkişaf əldə olunmasına imkan vermişdir. Məhz bu amil həm universitetin populyarlığının və cəlbediciliyinin artmasına, həm də əmək bazarının sürətlə dəyişən tələblərinə cavab verən yüksəkixtisaslı kadr hazırlığının keyfiyyətinin yüksəldilməsinə dəstək vermişdir.

Son tədris ilində universitetdə iqtisadiyyat, mühəndislik və pedaqoji profilləri əhatə edən 23 ixtisas (bakalavriat) və 12 ixtisaslaşma (magistratura) üzrə kadr hazırlığı həyata keçirilmişdir. 3 fakültənin, 10 kafedranın mövcud olduğu universitetdə 2400-dən artıq tələbə və magistrant təhsil almışdır.

İlk dəfə olaraq MDU-da tədris ilinə hazırlıqla bağlı müvafiq əmr verilmişdir. Mövcud qanunvericiliyin tələbləri və aparıcı universitetlərin müsbət təcrübəsi əsasında hazırlanmış əmrdə müvafiq struktur bölmələrinə konkret tapşırıqlar verilmişdir. Funksional iş bölgüsünün dəqiq aparılması tədrisin təşkilində səmərəliliyin artırılmasına səbəb olmuşdur.

Struktur islahatları çərçivəsində yeni yaradılan Tədris şöbəsi innovativ yönümlü təhsilin təşkili, proqnozlaşdırılması və planlaşdırılması, keyfiyyətin monitorinqi və qiymətləndirilməsi, tələbələrin qeydiyyatı və hərəkəti, məzunlarla iş, sənədləşmələrin sistemləşdirilməsi sahəsində mühüm rol oynamışdır. Şöbənin yaradılması ilə tədris idarəçiliyi mexanizmi əhəmiyyətli dərəcədə təkmilləşdirilmişdir.

Yeni təlim texnologiyalarından istifadə, interaktiv dərslərin keçirilməsi üçün elektron avadanlıqlarla təchizat, dərslik və dərs vəsaitləri ilə təminat, qiymətləndirmənin obyektiv və şəffaf keçirilməsi istiqamətində atılan addımlar öz müsbət nəticələrini artıq payız imtahan sessiyasında vermişdir.

Pandemiya şəraitində universitetin əsas vəzifəsi tədris prosesində davamlılığın təmin edilməsindən ibarət olmuşdur. Kollektivin məqsədyönlü fəaliyyəti və Təhsil Nazirliyi tərəfindən göstərilən davamlı dəstək nəticəsində MDU bu vəzifənin öhdəsindən gələ bilmişdir. Bütün mümkün online kommunikasiya alətlərindən istifadə, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, infrastruktur imkanların və kadr potensialının səfərbər olunması sayəsində tədrisin məsafədən təşkili mümkün olmuşdur. "ZOOM" və "Microsoft Teams" platformaları üzərindən 200-dən çox fənn üzrə 3759 virtual dərs keçirilmişdir. Akademik heyətin hazırladığı 710 "videodərs" Youtube kanalında ümumilikdə 100 min dəfədən çox izlənilmişdir. Müəllimlərin 90%-dən çoxu, tələbələrin 80%-dən çoxu, yaz semestrində tədris olunan fənlərin isə 100%-i məsafədən təhsilə cəlb olunmuşdur.

Yaz semestrinin imtahan sessiyasına hazırlıq istiqamətində görülmüş kompleks tədbirlər imtahan prosesinin operativ və çevik şəkildə idarə edilməsinə imkan vermişdir. Sessiyanın obyektiv, şəffaf və mütəşəkkil keçirilməsində akademik və inzibati heyət, "İmtahan Qərargahı", müəllimlərdən ibarət "İmtahanlara dəstək qrupu" və gənc əməkdaşlardan ibarət "Texniki dəstək qrupu"nun üzvləri fəal iştirak etmişlər.

İmtahanlarla bağlı müraciətlərə operativ baxılmasında və biliyin obyektiv qiymətləndirilməsinin təmin olunmasında "Apellyasiya Komissiyası" mühüm rol oynamışdır. İlk dəfə olaraq MDU-da reallaşdırılan "İmtahan könüllüləri" layihəsinə qoşulan könüllü sonuncu kurs tələbələri imtahan prosesində çevikliyin təmin olunmasına mühüm töhfələr vermişlər. İlk dəfə olaraq online formatda təşkil edilmiş magistrlik dissertasiyalarının müdafiəsi də uğurla başa çatmışdır.

Yaz imtahan sessiyasında bakalavriat səviyyəsində müvəffəqiyyət göstəricisi 99.3 faiz, keyfiyyət göstəricisi isə 27.5 faiz olmuşdur. Bu göstəricilər payız imtahan sessiyasında müvafiq olaraq 80.9 faiz və 16.9 faiz təşkil etmişdir. Eyni göstəricilər magistratura səviyyəsində müvafiq olaraq 100 faiz və 85 faiz 98.4 faiz və 64 faiz olmuşdur.

Tədris ilində elmi tədqiqatların məzmununun təkmilləşdirilməsinə, bu sahədə müasir metodlardan istifadənin artırılmasına və elmi fəaliyyətin nəticəyönümlülük yanaşması üzərində qurulmasına xüsusi diqqət yetirilmişdir. Bu dövrdə 4 elm sahəsi üzrə (təbiət, texniki, ictimai, humanitar elmlər) ümumilikdə 13 problemə dair 37 mövzunu əhatə edən 101 elmi iş yerinə yetirilmişdir. Tədqiqatların ölçüləbilən meyarlar əsasında aparılmasında yeni yaradılmış Elm və innovasiyalar şöbəsi mühüm rol oynamağa başlamışdır.

Elmi fəaliyyətlə məşğul olmaq üçün imkanlar artırılmış və stimullaşdırıcı addımlar atılmışdır. 2019-cu ildə digər qurumların doktoranturalarında MDU üçün 15 məqsədli yer ayrılmışdır. Hazırda universitetin 27 əməkdaşı fəlsəfə doktoru proqramı, 5 əməkdaşı isə elmlər doktoru proqramı üzrə müxtəlif universitetlərdə və AMEA-nın sahə institutlarında dissertant və doktorantdır. 300-dən artıq əməkdaşı olan universitetdə 185 professor-müəllim heyəti çalışır ki, onlardan 61 nəfərin müvafiq istiqamətlər üzrə elmi dərəcəsi vardır.

Tədqiqat bacarıqlarının inkişaf etdirilməsi kontekstində, Təhsil Nazirliyi və Avropa İttifaqı tərəfindən icra edilən "Azərbaycanın ali təhsil sistemində tədqiqat, ixtira və innovasiyaların gücləndirilməsi" layihəsi çərçivəsində təşkil olunan "Beynəlxalq elmi jurnallarda məqalələrin yazılması", "Tədqiqat metodologiyası", "Texnoloji transfer və kommersiya", "Sahibkarlıq və startap", "Open Access" və digər mövzularda keçirilmiş təlimlər çox faydalı olmuşdur.

Dünyanın aparıcı elmi-məlumat bazası olan "Web of Science®" platformasında MDU-nun profili yaradılmışdır. Profilə əsasən bu vaxta qədər əməkdaşların 9 məqaləsi "Web of Science®" bazasında indekslənən elmi nəşrlərdə dərc olunmuşdur. Onlardan 3-ü yüksək impakt faktorlu jurnallarda çap olunmuşdur. Məqalələr kimya mühəndisliyi, yanacaq energetikası, riyaziyyat və tətbiqi kimya sahələrinə aiddir. MDU-nun sözügedən baza üzrə göstəricilərinin daha da yaxşılaşdırılması məqsədilə Clarivate Analytics şirkəti ilə sürətlə inkişaf etdirilən tərəfdaşlıq çərçivəsində universitetin əməkdaşları üçün müvafiq təlimlərin təşkil edilməsi nəzərdə tutulmuşdur. Bu sıradan təşkil olunan ilk vebinarda MDU-nun 70-dən artıq əməkdaşı iştirak etmişdir.

Tələbələrin startap fəaliyyətinə cəlb olunmasına diqqət artırılmışdır. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İnnovasiyalar Agentliyi ilə Anlaşma Memorandumunun imzalanması bu sahədə mühüm uğur olmuşdur. Belə ki, Mingəçevir Yüksək Texnologiyalar parkında birgə yaradılmış "Simbioz" texnoloji biznes inkubatorda tələbələr fəal iştirak edirlər.

Dünya təcrübəsindən faydalanmaqla universitet idarəçiliyində daha çevik alətlərin və mexanizmlərin tətbiqinə diqqət yetirilmişdir. İlk növbədə tələbələrin bütün səviyyələrdə idarəetmə prosesində fəal iştirakı təmin edilmişdir. Əsaslandırılmış struktur islahatları tədris prosesinin səmərəli təşkilinə, idarəetmədə paralelliyin aradan qaldırılmasına, innovativ fəaliyyətin effektiv qurulmasına, kadrların inkişafının əlaqələndirilməsinə, ictimaiyyətlə əlaqələr və kargüzarlıq işinin keyfiyyətinin yüksəldilməsinə imkan yaratmışdır.

İdarəçilikdə şəffaflığın artırılması və ictimai hesabatlılığın təmin edilməsi məqsədilə MDU-nun İctimai Nəzarət Şurası yaradılmış, universitetin rəhbər şəxslərinin qəbul qrafiki müəyyən edilmişdir. Rektorun iştirakı ilə qış imtahan sessiyasında 5 dəfə, yaz imtahan sessiyasında isə 7 dəfə online formatda keçirilən "Açıq qapı" günləri faydalı müzakirə platformasına çevrilmişdir.

Yeni qəbul olunmuş tələbələrin universitet həyatına daha çevik inteqrasiya ola bilməsi məqsədilə ilk dəfə "Oriyentasiya günü" keçirilmişdir. Pandemiya dövrünün məhdudiyyətləri nəzərə alınmaqla cari ilin 29 uyun tarixində ali təhsil müəssisələri arasında ilk dəfə olaraq MDU-da virtual "Məzun günü-2020" tədbiri təşkil edilmişdir.

Ölkə rəhbəri tərəfindən ali təhsil sahəsinə göstərilən yüksək diqqətin yaratdığı imkanlardan faydalanmaqla, 1 sentyabr 2019-cu il tarixindən etibarən universitetdə aylıq əməkhaqqı orta hesabla 15 faiz artırılmışdır. MDU-nun 2 əməkdaşı Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi döş nişanı, 5 əməkdaşı isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəxri fərmanı ilə təltif olunmuşdur.

Kadr hazırlığının məzmununu müasirləşdirmək məqsədilə Erasmus+ proqramından faydalanmaq istiqamətində addımlar atılmışdır. Bu proqram çərçivəsində payız semestrində 2, yaz semestrində isə 3 MDU tələbəsi İspaniyanın Vallodolid Universitetində təhsil almışdır. Bundan başqa, MDU "Azərbaycan universitetlərində keyfiyyət təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi" adlı Erasmus+layihəsində də fəal iştirak edir.

MDU əməkdaşları Böyük Britaniyada, İsveçdə, Litvada və Koreyada təşkil olunan tədbirlərdə iştirak etmişlər. MDU Bolonya prosesi üzrə İşçi Qrupunun iclasında (Helsinki), X Rusiya-Azərbaycan Regionlararası Forumunda (Moskva) və "Ali təhsil islahatları ekspertlərinin illik konfransı"nda (Praqa) təmsil olunmuşdur.

2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan edilməsi ilə əlaqədar Təhsil Nazirliyinin "Bir" Tələbə Könüllü Proqramı, "ASAN Könüllüləri" təşkilatı, Mingəçevir Gənclər Evi, Mingəçevir şəhər Gənclər və İdman İdarəsi ilə birgə bu istiqamətdə əhəmiyyətli işlər görülmüşdür. MDU "Region Könüllülərinin İnkişaf Forumu"nun təşkilatçılarından biri olmuşdur.

Universitetdə müvafiq istiqamətlər üzrə fəaliyyətin daha keyfiyyətli həyata keçirilməsində Təhsil Nazirliyi, Mingəçevir Şəhər İcra Hakimiyyəti və digər tərəfdaşların davamlı töhfəsi mühüm rol oynamışdır. Məhz bu qarşılıqlı faydalı tərəfdaşlıqlar yeni missiyanın başlandığı ilk tədris ilində MDU-nun modernləşməyə doğru inamlı addımlar atmasını şərtləndirmişdir.

Şahin BAYRAMOV,
Mingəçevir Dövlət Universitetinin rektoru

Nadir şah Əfşarın Azərbaycanın xristian əhalisi ilə münasibətlərinə dair kitab nəşr olunub

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi şurasının qərarı ilə "Nadir şah Əfşarın Azərbaycanın xristian əhalisi ilə münasibətlərinə dair farsdilli sənədlər (Erməni icmasının timsalında)" kitabı "Elm" nəşriyyatında çapdan çıxıb.



AZƏRTAC xəbər verir ki, kitabda ilkin mənbələr əsasında Nadir şah Əfşarın dövründə Azərbaycanda xristian əhalinin vəziyyəti araşdırılıb və əsas diqqət tarixşünaslıqda az öyrənilmiş bir problemə - xristian əhalinin imtiyazları və onlara göstərilən himayədarlıq məsələsinə yönəldilib. Nadir şahın xristian kilsə və monastırlarının nümayəndələrinə xeyirxah münasibəti onun hökm və fərmanlarında əksini tapıb. Şahın öz xristian təbəələrinə qarşı yeritdiyi dözümlü siyasət nəticəsində Üçkilsə yeparxiyasının mülkiyyəti vergilərdən azad edilmişdi. Xristianlara kilsələrini nəinki bərpa etməyə, həm də yenilərini tikməyə icazə verilirdi.

Kitabın elmi redaktoru, akademik Ramiz Mehdiyev nəşrə yazdığı "Nadir şah və imperiyanın erməni icması: tarixi sənədlər uydurmalara və təhriflərə qarşı" sərlövhəli "Ön söz"də qeyd edir ki, Nadir şahın fəaliyyəti Azərbaycan üçün istər dövlətçilik və hərb tarixi, istərsə də ideoloji dəyişikliklər nöqteyi-nəzərindən böyük əhəmiyyətə malikdir: "Nadir şahın tarixi irsi sadalanan amillərlə yanaşı, mayası düşmənçilik və nifrətlə yoğrulmuş, bir qayda olaraq saxtakarlıq üzərində bina edilmiş millətçi erməni təbliğatının ifşası baxımından da böyük dəyər kəsb edir".

Erməni tarixşünaslığının Nadir şahı xristianlığın düşməni olan islam fanatiki obrazında qələmə vermək cəhdlərini ənənəvi erməni təbliğatının növbəti təzahürü kimi dəyərləndirən alimin fikrincə, Azərbaycan tarixçilərinin vəzifəsi qarşı tərəfə emosiyalardan uzaq, sənədlərə və təhlilə söykənən tutarlı elmi cavab verməkdən ibarətdir. Sənədlər toplusu məhz sözügedən məqsədə xidmət edir. Nəşrdə əksini tapmış sənədlər Nadir şah dövründə ermənilərin Azərbaycan və İran ərazisində hansı statusda yaşadıqlarını birmənalı şəkildə göz önünə gətirir.

Kitaba 28 sənəd daxildir. Məktub və fərmanlardan ibarət həmin sənədlərin böyük əksəriyyəti Nadir şahla erməni icmasının münasibətlərindən bəhs edir. 28-ci sənəd isə Nadir şahın imperiyanın bütün xristian təbəələrinə etiqad azadlığının verilməsini ehtiva edən fərmandır. "Ön söz"də qeyd olunur ki, həmin fərmana əsasən, Nadir şahı müsəlman hökmdarlarının xristianlara münasibətdə çoxəsrlik tolerantlıq siyasətinin davamçısı da adlandırmaq olar.

Hər fərmanın sonuna onun verilməsini zəruri edən müraciət və şikayətin mətni əlavə edilirdi ki, bu da yerlərdəki məmura hökmdarın baş verənlərdən xəbərdar olduğunu izah edən xüsusi bir işarə kimi qiymətləndirilməlidir. Topludakı sənədlər arasında, həmçinin Nadir şahın oğlu, vəliəhd Rzaqulu Mirzənin ermənilərlə bağlı verdiyi 3 fərman mövcuddur. Həmin sənədlər də məzmunca Nadir şahın erməni icmasına münasibətdə yeritdiyi xəttin ruhuna uyğundur.

Oxuculara Azərbaycan dilində təqdim edilən bütün bu sənədlərin əhəmiyyəti onların erməni tarixşünaslığı tərəfindən də dəqiq qaynaq olaraq qəbul edilməsilə bağlıdır. Bu isə tədqiqatçıları mənbələrin ciddiliyi ilə bağlı ortaya atıla biləcək şübhə və mübahisələrdən azad edəcək.

Kitabdakı sənədləri fars dilindən AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent, mənbəşünas alim Əkrəm Bağırov tərcümə edib. Sənədlərin başa düşülməsini asanlaşdıran terminoloji lüğət və izahlar da tərcüməçi tərəfindən hazırlanıb. Toplunun tərtibçisi, kitabda yer alan "Nadir şah Əfşar hakimiyyəti dövründə Azərbaycanda xristian əhalinin vəziyyəti" tarixi araşdırmanın müəllifi AMEA A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Nigar Gözəlovadır. Layihənin rəhbəri isə AMEA prezidenti katibliyinin rəisi, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Eldar Əmirovdur.

İlk dəfə elmi dövriyyəyə buraxılan bu sənədlər tarixşünaslığımız üçün faydalı mənbədir. Kitabda, həmçinin sənədlərin farsca mətni, fotofaksimilesi verilib.

"Naxçıvan könüllüləri" veb-saytının təqdimatı keçirilib

Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunda "Naxçıvan könüllüləri" veb-saytının təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı Cəbi Quliyev Prezident İlham Əliyevin sərəncamı ilə 2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan edilməsi nəticəsində bir çox gəncin yeni həyat tərzi, yeni stimul və yeni mənəvi dəyərlər qazandığını bildirib.

"Muxtar respublikada da son illər könüllülük fəaliyyətləri geniş vüsət alıb, bir çox idarə və müəssisələrin tərkibində könüllülük prinsipləri ətrafında yüzlərlə gənc toplanıb. Gənclər Fondu da Naxçıvan gənclərinin könüllülük prinsipləri ətrafında birləşməsi üçün 2018-ci ildən fəaliyyət istiqamətində müəyyən dəyişikliklər edib, müxtəlif dövlət qurumları ilə birgə 4 könüllülük platforması yaradıb", - deyən Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru diqqətə çatdırıb ki, təqdimatı keçirilən www.naxkonulluleri.nmr.az saytının fəaliyyəti könüllülük hərəkatına yeni təkan verəcək. Saytın yaradılmasında məqsəd könüllülük hərəkatının gənclər arasında geniş təbliği, bütün könüllü təşkilatların həyata keçirəcəyi tədbirlər haqqında məlumatların operativ çatdırılmasıdır.

Cəbi Quliyev çıxışının sonunda gənclərin, eləcə də könüllülərin fəaliyyəti üçün yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Könüllülər adından Şövkət Kərimli çıxış edərək bir gənc kimi bilik və bacarıqlarının artırılmasında, dünyagörüşünün formalaşmasında, fərdi inkişafında könüllülüyün rolundan danışıb, muxtar respublikada gənclərə göstərilən qayğıya görə minnətdarlıq edib.

Sonra Gənclər Fondunun Gənclər təşkilatları və gənclərlə iş şöbəsinin müdiri Arzu Qasımov saytın təqdimatını edib. Bildirib ki, dizayn, quruluş və məzmun baxımından yüksək tələblərə cavab verən www.naxkonulluleri.nmr.az saytı vasitəsilə könüllülük fəaliyyətinin ayrı-ayrı istiqamətləri, bu sahədə olan yeniliklər, həyata keçirilən tədbirlər daha dolğun və operativ şəkildə könüllü gənclərə, eləcə də ictimaiyyətə çatdırılacaq. Sayt, ümumilikdə, 6 bölmə, 21 altbölmədən ibarətdir. Burada həm könüllülər və könüllü fəaliyyət həyata keçirən təşkilatlar, həm də işəgötürənlər üçün müvafiq imkanlar yaradılıb, bütün iş prosesinə mərkəzi nəzarət və idarəetmə mexanizmi qurulub. Həmçinin saytda rəsmi sənədlər, könüllülük və könüllülər haqqında məlumatlar, könüllü olmaq üçün təşkilatların tələbləri, İdeya və İnkişaf Mərkəzinə layihələrin təqdimedilmə qaydaları və digər məlumat bölmələri yerləşdirilib. Əsas səhifədə istifadəçilərin informasiya əldə etmələri üçün "Axtarış" bölməsi, həmçinin "Sertifikatını yoxla", "Ayın könüllüsü", "Təqvim", "Layihələr" bölmələri yaradılıb və sosial şəbəkə səhifələrinə keçidlər verilib. Bundan əlavə, "Könüllü ol!" bölməsi vasitəsilə gənclər istədikləri quruma könüllü olmaq üçün müraciət edə biləcəklər. Ana səhifədə aktiv könüllü və aktiv layihə sayı ilə, eləcə də burada yaradılmış "Giriş" bölməsi vasitəsilə müvafiq istiqamətdə keçirilən bütün tədbirlərlə, yeni könüllü istəkləri ilə tanış ola biləcəklər. Könüllülərin müraciətlərinin onlayn təşkili məqsədilə "Elektron müraciət" bölməsi yaradılıb, "Aktual keçidlər" bölməsində isə nazirlik, komitə, idarə və təşkilatların, həmçinin muzeylərin internet saytlarına keçidlər slayd şəklində yerləşdirilib. Saytın aşağı hissəsində muxtar respublikanın inkişafını və turizm potensialını əks etdirən materiallar, eləcə də tarixi abidələrin fotoşəkilləri slaydlarla təqdim olunur.

Tədbirin sonunda Naxçıvan könüllülərinin fəaliyyətini əks etdirən videoçarxa baxış olub.